# Latex

## Texniki Məlumat Səhifəsi

### MƏHSUL HAQQINDA

Sement əsaslı suvaqlarda mexaniki dayanqlığı artıran, su keçirməzliyi artıran kopolimer əsaslı qatqı materialıdır. Məhsulun istifadə imkanlarını artıran qatqılarla zəngin, istifadəyə hazır duru mayedir.

### İSTİFADƏ SAHƏLƏRİ

*Bu məhsuldan:*

gips, beton, suvaq, döşəmə suvağı, ağac kimi səthlərin suhopma qabiliyyətini azaltmaqla sement əsaslı materialların yapışma qabiliyyətinin artırılmasında; köhnə səthlərin üzərində görüləcək üzlük tamamlama işlərindən əvvəl; daha yaxşı nəticə əldə etmək məqsədi ilə keramika, üzlük plitələr, səviyyə alma qarışığı (Şap), izolyasiya, boya kimi materialları istifadə etməmişdən əvvəl istifadə olunur.

### İSTİFADƏ QAYDALARI

***Səthin hazırlanması.*** İstifadə olunacaq səthlərin sağlam, quru, təmiz və ölçülərin düzgün olmasına diqqət edilməlidir. Səth yapışma müqavimətini zəiflədən hər növ yağ və parafin qalıqlarından tamamilə təmizlənməlidir.

***Tətbiqi.*** Epo Latex məhsulunu istifadədən əvvəl çalxalayın və səthə vərdənə və ya fırça ilə çəkin. Qurumayana qədər üzərində heç bir iş görməyin. Maddənin quruma müddəti 45-60 dəqiqədir. Gips kimi suhopma qabiliyyəti yüksək olan məhsulların üzərinə 2 qat çəkin.

***Tövsiyələr.*** Epo Latex astarının istifadə olunduğu səthin temperaturu +5C-dən aşağı və +30C-dən yuxarıdırsa, lazımi temperatur təmin olunmalıdır. İsti (+30 C-dən yuxarı), yağışlı və küləkli havalarda istifadə olunmamalıdır. İstifadədən sonra bütün alət və ləvazimatlar su ilə təmizlənməlidir

**“EPO YAPI KIMYA” MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Ünvan: Qarabağ,Xocalı rayonu Malıbəyli kəndi.
Tel: (+994 12) 345 04 05
Faks: (+994 12) 345 04 06
E-mail: office@cmt.com.az
Web-site: www.epo.com.az

## *TEXNİKİ GÖSTƏRİCİLƏR*

| | |
|---|---|
| **Rəngi** | **ağ rəngli maye** |
| **İstifadə temperaturu** | **+50 C÷ +300 C** |
| **Quruma müddəti:<br>+23 C temperaturda** | **45-60 dəqiqə** |
| **Həcm kütləsi** | **1,1 kq/l** |
| **Qablaşdırma** | **1; 4 və 10 litrlik plastik bidon40 mm** |

## *SƏRFİYYAT*

Epo Latex üçün sərfiyyat 1 m2 sahəyə 150 qramdır. 1 litrlik Epo Latex məhsulu təxminən 6-7 m2 səthin astarlanmasına sərf olunur.

## *SAXLAMA MÜDDƏTİ VƏ QAYDASI*

Açılmamış qablarda quru şəraitdə 12 ay saxlanıla bilər.

## *XƏBƏRDARLIQLAR*

astarın mürəkkəb tərkibli qarışıq olduğunu nəzərə alaraq dəriyə və ya gözə düşdükdə dərhal su ilə yuyun; isitifadə qaydalarında qeyd edilməyən heç bir əlavə maddə qatmayın; yuxarıdakı göstəricilər +230C±20C temperatur və 50% +5% rütubətli şəraitdə aparılan laboratoriya sınaqları nəticəsində əldə olunmuşdur. Şəraitdən asılı olaraq bu göstəricilər dəyişə bilər.

## *ZƏMANƏT VƏ TEXNİKİ DƏSTƏK*

- texniki göstəricilərdə qeyd edilmiş məlumatlar elmi və təcrübi biliklərə əsaslanır;

- “ CMT GROUP” şirkəti məhsulun müvafiq texniki şərt və dövlət standartlarına uyğunluğuna zəmanət verir;

- şirkətin mütəxəssislərinin rəhbərliyi altında görülən işlər istisna olmaqla, digər istifadəçilər tərəfindən təlimatdan kənar istifadə zamanı yarana biləcək problemlərə görə “CMT GROUP” şirkəti məsuliyyət daşımır;

- şirkət elmi-texniki inkişafla bağlı məhsulda dəyişiklik etmə hüququnu özündə saxlayır;

- texniki dəstək və ya daha geniş məlumat almaq üçün “CMT GROUP” şirkətinə müraciət edin!

**“EPO YAPI KIMYA” MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Ünvan: Qarabağ,Xocalı rayonu Malıbəyli kəndi.
Tel: (+994 12) 345 04 05
Faks: (+994 12) 345 04 06
E-mail: office@cmt.com.az
Web-site: www.epo.com.az